# "ONUN ÜRƏYİ HƏYAT EŞQİ İLƏ ÇIRPINIRDI..."



*(Əvvəli ötən sayımızda)*

**- Şəhidimizin Vətən Müharibəsində iştirak etməyindən xəbəriniz var idimi, əgər var idisə bu xəbəri nə vaxt, kimdən və necə əldə edə bilmişdiniz?**

- Axırıncı dəfə Fəxri 23 iyul 2020-ci ildə bizimlə telefonla danışdı. Çox qəribə idi. Həmişə zarafatlaşardı, amma bu dəfə çox ciddi danışdı. "Özünüzə yaxşı baxın"- dedi. Təəccübləndim. Amma ağlıma belə gəlməzdi ki, bu, bizim onunla son danışığımız olacaq.Dostlarının dediyinə görə Fəxribizə qıymayıb müharibə xəbərini verməyə. Deyib, anamın ürəyi xəstədir, anam dözməz bu xəbərə. 27 sentyabr tarixində başlanan döyüş əməliyyatında Fəxrinin iştirak etdiyini bilmirdim, amma hiss etmişdim ki,mənim balam od-alov içində, mənim üçün darda, əslində isə öz arzusunun yolundadır. Vətən müharibəsinin başlandığını isə Prezidentimizin televiziyada yayımlanan çıxışından, hətta Cəbrayıl rayonunun Nüzgar kəndi də daxil olmaqla 7 yaşayış məntəqəmizin azad olunması xəbərindən eşidib bilmişdim. Bütün günü Fəxrinin uşaqlığından, dünyaya gəlişindən, həyatından, yaşadıqlarından bacıları ilə danışırdım. Sonra elə bil ikinci bir səs mənə "Hospitala zəng et" - dedi. Həmin səsi eşidib hospitala zəng etdim. Fəxrini soraqlayıb axtardım. O, yaralılar arasında tapılmadı. Həyəcanla zəngini gözlədim. Lakin ondan zəng yox idi, telefon Fəxri sarıdan elə susduqca susur, mənim ürəyimi dara çəkirdi.

**- Vətən müharibəsi zamanı Şəhidimizlə əlaqə saxlaya bilirdiniz?**

- Vətən müharibəsinin xəbərini alandan sonra özü ilə əlaqə saxlaya bilmədiyim üçün onun əsgər yoldaşlarının telefon nömrələrinə zəng vurdum. Dedilər, Fəxridöyüş ərazisindədir, oradan gələn kimi sizə zəng edəcək. Sonradan bildim ki, bu ərazi neytral ərazidir. Fəxrim 12 saat yaralı halda düşmənə əsir düşməmək və döyüş yoldaşlarını qorumaq üçün səsini belə çıxartmayıb, tərpənmədən hərəkətsiz qalıb, onu götürməyə gələnlərə özünü nişan verməyib. Fəxrim snayper gülləsindən aldığı yara nəticəsində yaranan qanaxmadan elə həmin ərazidə şəhid olub. Döyüş yoldaşlarının sağ qalması üçün vətən yolunda öz canını qurban verib.

**- Onun şəhid olma xəbərini nə zaman və necə aldınız?**

- 29 sentyabr 2020-ci il. Bizim üçün həm ən ağır, həm də qürurlu o payız səhərini xatırlamaq çox çətindir. Fəxrinin bacısı yuxudan ayılıb dedi ki, ana,yuxuda gördüm, Fəxri evə qayıdıb. Soruşuram: "Qaqaş, niyə belə tez gəldin?" Fəxri söyləyib ki, məni xidmətdən üç ay tez tərxis etdilər. Hərbi biletimi də verdilər. Bacısı yuxusunu danışdı və birdən yerə yıxıldı.Hamımız həyəcanlandıq. Tez dərman verdik, onu sakitləşdirdik. Birdən həyət darvazası döyüldü. Atası qapıya çıxdı, kiminləsə danışdıqdan sonra birdən ani olaraq yerə çökdü.- Mən də qapıya qaçdım və bu zaman qapıda başlarını aşağı dikmiş dövlət nümayəndələrini gördüm. Onlar "Oğlunuz Fəxri hospitalda yaralıdır", - dedilər. Mən bu gəlişdən anladım ki, Fəxri Şəhiddir. Əgər yaralı olsaydı, xəstəxanadan zəng edərdilər. Lakin hələ də ümid etdim ki, bəlkə,məlumat səhvdir və 27 sentyabrda müharibə başlayandan etdiyim dualarımı bir daha təkrarladım: "Allahım, Fəxrim Şəhid olsun, amma əsir düşməsin". Bundan sonra qonşuların qapılarını döyməyə başladım. Köməksiz qalmışdım, polis işçiləri köməyimə çatdı və qonşuları çağırdı. Elə bildim, bizi morqa aparacaqlar. Elə bu vaxt yaşadığımız məhləyə təcili yardım maşını gəldi. Mən elə bildim,vəziyyətimin pis olduğuna görə mənim üçün çağırıblar. Yalvardım ki, mənə iynə vurdurmayın, mən Fəxrimi görüb tanımalıyam. Təcili yardım maşınının açılan qapıları bütün ümidlərimi alt-üst etdi. Qırmızı rəngli, üstü Azərbaycan bayrağı ilə örtülmüş Şəhid tabutu. Bir anlıq soyuq torpaqda ayaqyalın dayanan gözüyaşlı



iki qızıma, "Oğlum Murovda döyüşməlidir" deyən yoldaşıma və bacısına yuxuda "Üç ay tez tərxis olmuşam", - deyən Şəhid oğluma baxdım və ürəyimdə "Ay Fəxri, ay oğul, axı demişdim sənə, ürəyim xəstədir. Gələndə xəbər elə. Ürəyim sürprizlərə dözməz, bu nə böyük hədiyyədir", - deyə pıçıldadım.

**- Müzəffər ordumuz qələbə çaldı. Vətən müharibəsində qələbənin qazanılmasından, Fəxri Məmmədovun şəhid olduğu yerlərin azad olmasından sonra siz hansı hissləri keçirdiniz?**

-Müzəffər ordumuz qələbə çaldı.Vətən müharibəsində qələbənin qazanılmasında mənim Şəhid balam Fəxri Məmmədovun əməyi, zəhməti, rolu olduğundan şəhid olduğu Cəbrayıl torpağının, ata yurdu Laçının azad olunduğu xəbərinə hayqıraraq ağladım.Torpaqlarımız azad olsun. Qaçqın, məcburi köçkünlər öz evlərinə yurd-yuvalarına dönsünlər və heç zaman Şəhidləri unutmasınlar.

**- Son olaraq Vətən müharibəsişəhidi Fəxri Məmmədovunanası kimi şəhid ailələrinə və biz gənclərə nə deyərdiniz, nələri tövsiyə edərdiniz?**

- Son olaraq Vətən müharibəsi Şəhidi Fəxri Məmmədovun anası olaraq özümə və ailəmə, ümumi Şəhid ailələrinə və Azərbaycan gənclərinə tövsiyə edirəm.Şəhidlərimizin nur üzünə xatir onların adlarına layiq yaşayın,yaradın. Fəxri kimi, mənim kimi Azərbaycan bayrağını,himnimizi, torpağımızı sevin, qoruyun vəhər açılan səhərimizdə Şəhidləri salamlayaraq"ŞƏHİDLƏRƏ SALAM OLSUN"- deyin.

Əziz, istedadlı oğlumSevindik.Sənə müsahibə aldığın üçün təşəkkür edirəm.Sən Azərbaycanın istedadlı, vətənpərvər oğullarından birisən.Səninlə fəxr edirəm.

Mən isə bir gənc vətənpərvər kimi deyirəm! Əziz Ana, mənə təşəkkür etməyə ehtiyac yoxdur. Bu, mənim borcumdur. Bu, təkcə mənim yox, Şəhidlərimizin can verib qan tökdüyü Azərbaycan torpaqlarında yaşayan, özünə "Bu ölkənin vətəndaşıyam"-deyən hər bir fərdin borcudur. Mən Sizə müsahibəyə görə təşəkkür edirəm. Təşəkkür edirəm ki, mənim borcumdan çıxmaq üçün etdiyim cəhdə köməkçi oldunuz. Bu borc can borcudur.- Biz, əgər Allah möhlət versə, ömrümüzün sonuna qədər bu borcu ödəməyə çalışacağıq və nə etsək də bu borcdan çıxa bilməyəcəyik. Fəxri qardaşımızın Vətən yolunda borcundan çıxmasına 20 il bəs etdi, lakin bizə həm Sizin, həm oğlunuzun, həm də Vətənimizin borcundan çıxmağımıza ömrümüz belə bəs etməyəcək.

Qeyd edim ki, şəhid Fəxri Məmmədov ölümündən sonra Azərbaycan Respublikasının Prezidentinin müvafiq Sərəncamlarına əsasən Azərbaycan ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını uğurla yerinə yetirdiyinə, düşmənin əsas qruplaşmalarının məhv edilməsi ilə qoşunların döyüş qabiliyyətinin qorunub saxlanılmasında fərqləndiyinə görə "Cəsur döyüşçü" medalı ilə, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün"Vətən uğrunda" medalı ilə, Füzuli, Cəbrayıl, Xocavənd və Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə"Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və"Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Mən yazımda, fikrimdə və qəlbimdə qurmağa çalışdığım Qəhrəman ana və qəhrəman övlad abidəsinə bir daha baxır, bu abidənin baş qəhrəmanları olan Sizə və şəhid oğlunuz Fəxri qardaşımın əziz ruhuna minnətdarlığımı bildirirəm və onu da bildirirəm ki, biz Sizə ömür boyu minnətdar olacağıq. Allah Şəhidlərimizə rəhmət eləsin!



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi, şair-publisist,***
***AJB üzvü***